# HÜQUQ VƏ MƏN

MƏKTƏBLİLƏR ÜÇÜN
QANUNLAR VƏ MƏHKƏMƏLƏR
HAQQINDA BƏLƏDÇİ



# HÜQUQ VƏ MƏN

## MƏKTƏBLİLƏR ÜÇÜN QANUNLAR VƏ MƏHKƏMƏLƏR HAQQINDA BƏLƏDÇİ


giz

BMZ Bundesministerium für wirtschaftliche Zusammenarbeit und Entwicklung

AHİM
AZƏRBAYCAN HÜQUQ İSLAHATLARI MƏRKƏZİ
AZERBAIJAN LAW REFORM CENTRE

1

DÖVLƏT NƏDİR
VƏ AZƏRBAYCAN
DÖVLƏTÇİLİK
TARİXİ
HAQQINDA.
8

2

HÜQUQ NƏDİR VƏ
AZƏRBAYCAN
HÜQUQ TARİXİ
HAQQINDA.
12

KONSTİTUSİYAMIZ
HAQQINDA;
15

HÜQUQUN SAHƏLƏRİ
HAQQINDA;
16

Bu kitab «Azərbaycan Hüquq İslahatlari Mərkəzı» İB tərəfindən Almaniya Beynəlxalq Əməkdaşlıq Camiyyətinin (GİZ) maliyyə dəstəyi ilə dərc olunub. Kitabdakı nəticələr və şərhlər Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) mövqeyini əks etdirmir.

Kitabın elektron forması aşağıdakı internet səhfəsində əldə oluna bilər:
www.giz.de/law-caucasus
www.lawreform.az

Layihə:
Georg Andrae & Jonathan Bachmann

© Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) MMC, 2012

© Azərbaycan Hüquq İslahatları Mərkəzi İctimai Birliyi, 2012

3

İNSANLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ: 18

İNSAN HÜQUQLARI NƏ DEMƏKDİR? 19

BƏRABƏRLİK HÜQUQU; 20

YAŞAMAQ HÜQUQU; 21

AZADLIQ HÜQUQU; 22

MÜLKİYYƏT HÜQUQU; 22

İNSANLARIN VƏZİFƏLƏRİ VƏ BU VƏZİFƏLƏRİN ƏSASI NƏDİR? 23

VƏTƏNƏ SƏDAQƏT VƏ ONUN MÜDAFİƏSİ; 24

ƏTRAF MÜHİTİN VƏ TARİXİ ABİDƏLƏRİN QORUNMASI. 24

4

MƏHKƏMƏ HAKİMİYYƏTİ. 26

MƏHKƏMƏ NƏDİR? 27

HAKİM VƏ MƏHKƏMƏDƏ TƏRƏFLƏR KİMLƏRDİR? 28

MƏHKƏMƏ İNSTANSİYALARI; 29

5

AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİ. 30

KONSTİTUSİYA MƏHKƏMƏSİ HAQQINDA; 31

KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QURULUŞU; 32

KONSTİTUSİYA MƏHKƏMƏSİ NƏ EDİR? 33

6

CİNAYƏT MƏSULİYYƏTİ NƏDİR? 34

MƏHKƏMƏDƏ CİNAYƏT PROSESİ BARƏDƏ; 36

YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏT MƏSULİYYƏTİ; 37

7

AVROPA KONSVENSİYASİ VƏ AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ. 38

*Əziz məktəblilər!*

Bir neçə ildən sonra hər biriniz müstəqil həyata qədəm qoyacaqsınız. Cəmiyyətdə özünüzə layiqli yer tutmaq üçün ən vacib şərtlərdən biri isə hərtərəfli savadlı və məlumatlı olmağınızdır.
Ətrafımıza diqqətlə baxdıqda dayanmadan işləyən bir mexanizmin – dövlət orqanlarının, müxtəlif təşkilatların, çoxsaylı şirkətlərin və onlarda çalışan insanların olduğunu görərik. Cəmiyyətin normal fəaliyyəti məhz bu qurumların səmərəli işləməsindən asılıdır. Bununla əlaqədar, sizdə sual yarana bilər: «Cəmiyyətin, dövlətin belə ahəngdar işləməsinin əsasında nə durur?». Bu sualın cavabı «hüquq və qanunlar» dır. Konstitusiyamızda göstərildiyi kimi, «Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir». Bu baxımdan qanunların dəqiq işləməsi üçün əsas şərtlərdən biri də insanların öz hüquqları və ölkənin hüquq sistemi ilə lazımi səviyyədə tanışlığıdır. Çünki, qanunlar nə qədər düzgün və ədalətli olsa da onlar barəsində məlumatlı olmayan cəmiyyətdə münasibətlər tərəqqi edə bilməz.



*Əziz məktəblilər!*

Ölkəmizdə hüquq maarifləndirmə işini həyata keçirən əsas dövlət qurumu olaraq Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, «Azərbaycan Hüquq İslahatları Mərkəzi» İctimai Birliyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə əməyinin bəhrəsi olan bu gərəkli vəsaitin sizin hüquq sahəsində biliklərinizin dərinləşməsinə, həyatı daha düzgün dərk etmənizə yardımçı olacağına ümid edir.
Hər birinizə uğurlar arzulayırıq!

**Toğrul Musayev**
*Azərbaycan Respublikası*
*Ədliyyə Nazirinin müavini*

*Əziz məktəblilər!*

Oxuduğunuz bu kitab Azərbaycan Hüquq İslahatları Mərkəzi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə səyi nəticəsində buraxılmışdır. Kitabın buraxılmasında məqsəd sizlərin – orta məktəb şagirdlərinin hüquq və məhkəmə sistemi haqqında ilkin biliklərə yiyələnməyinizə dəstək verməkdir. Kitabın adı (Hüquq və Mən) sizləri bir qədər çaşdıra bilər. Çünki bu kitabda təkcə ölkəmizin Konstitusiyası haqqında məlumatlarla kifayətlənilməyərək, həmçinin insan hüquq və vəzifələri, Azərbaycanın dövlət və hüquq tarixi, məhkəmə prosesləri və onların iştirakçıları, Avropa Məhkəməsi və s. haqqında məlumat verilmişdir.
Kitabı hazırlayarkən düşünmüşük ki, hüquq haqqında bir az ətraflı məlumatlara sahib olmağınız sizləri gələcək həyatınıza daha hazırlıqlı edəcək. Hətta bəzilərinizin hüquqşünas (hakim, vəkil, prokuror və s.) peşəsinə yiyələnməsinə sövq edəcəkdir.
Bir neçə ildən sonra hər birinizin 18 yaşı tamam olacaqdır və siz ölkəmizin tam-hüquqlu vətəndaşlarına çevriləcəksiniz. Siz seçkilərdə səsvermə

hüququnu qazanacaq, ölkə ərazisində və ondan kənarda sərbəst hərəkət etmək hüququna sahib olacaq, istədiyiniz peşəyə yiyələnə biləcəksiniz. Eyni zamanda, məhz həmin yaşdan sonra sizlərdən hər biri artıq öz hərəkətlərinə özü cavab vermək məcburiyyətində olacaqdır. Gündəlik həyatımızda hər birimiz müxtəlif hüquqi hadisələrlə qarşılaşa bilərik: hər hansı əşyanı ala, yol-nəqliyyat hadisəsi törədə, məhkəməyə çıxmalı ola bilərik. Heç bir şəxs belə hadisələrdən sığortalanmayıb. Lakin burada əsas məsələ bizlərin belə hadisələr zamanı nə dərəcədə məlumatlı və hazırlıqlı olmağımızdır. Yalnız yaxşı məlumatlanmış, bilikli insanlar belə vəziyyətlərdə soyuqqanlılıq nümayiş etdirə bilir və bu insanların problemləri öz həllini vaxtında tapa bilir. Bunun üçün təkcə hüquq deyil, məktəbdə keçilən digər dərs sahələri üzrə də bilikli olmaq vacib şərtdir.
Kitabın sizlər üçün faydalı olacağına ümid edir və sizin onu yaxşı öyrənməyinizi arzu edirik.

*Hər birinizə uğurlar!*
**Layihə Komandası**



# 1. DÖVLƏT NƏDİR VƏ AZƏRBAYCAN DÖVLƏTÇİLİK TARİXİ HAQQINDA:



Əziz məktəblilər, hamımız hələ qədim dünya tarixi dərslərindən bilirik ki, müəyyən dildə danışan, ümumi adət-ənənələri olan insanlar hər zaman müəyyən ərazilərdə yaşamışlar. Zaman keçdikcə və insanların sayları artıdqca, onlar arasında münasibətləri tənzimləmək bir az çətinlik yaratmağa başlayır. Və gələcəkdə həmin insanlar arsında anlaşılmazlıqları aradan qaldıracaq bir qüvvəyə ehtiyac yaranır. Həmin qüvvə rolunda isə dövlət çıxış edə bilir. Dövlət isə insan cəmiyyətini daha da səmərəli idarə etmək üçün qaydalar müəyyənləşdirir ki, buna da bizlər günümüzdə qanunlar deyirik.

Dövlət insanların müəyyən ərazidə fəaliyyət göstərən təşkilatlanmış formasıdır. Və bu təşkilatı saxlamaq üçün dövlətin qanunları vardır. Elə bu qanunlar vasitəsi ilə insanlar dövlətin idarə olunmasında iştirak edirlər və insanlar arasında münasibətlər də dövlət tərəfindən qəbul olunmuş qanun-qaydalarla tənzimlənmişdir. Amma cəmiyyət və insanlar arasında münasibətlər təkcə qanunlarla deyil, həmçinin tarixən yaranmış adət qaydaları ilə də tənzimlənir.

Ümumiyyətlə, müasir dövlətlərin məqsədləri aşağıdakı kimidir:

- Cəmiyyət üzvləri arasında münasibətlərin normal saxlanılmasını təmin etmək. Bura cəmiyyət üzvlərinin cinayət hadisələrindən qorunması da daxildir;
- Cəmiyyət üzvlərinin ümumi maddi və mənəvi ehtiyaclarını əks etdirən azadlıq, mənəviyyat, ədalət, səhiyyə, təhsil, ekologiya və digər amillərin qorunması və təmin edilməsi;
- Yuxarıda qeyd olunanların normal işləməsini təmin etmək üçün demokratiyanı qurmaq. Demokratiya isə elə idarəetmə yoludur ki, bu idarəetmədə insanlar özü birbaşa (məsələn, seçki, referendum) və ya dolayı (məsələn, seçdiyi millət vəkili (deputat) vasitəsilə) yolla iştirak edir.

Beləliklə, dövlətin əsas vəzifəsi



cəmiyyətə, onun maraqlarına xidmət etməkdir.

Hamımızın tarix dərsliklərindən bildiyi kimi Azərbaycanda dövlətçiliyin yaranması çox qədim tarixə gedib çıxır. Təsadüfi deyil ki, ölkəmizin tarixi ərazilərində yaranmış Manna, Midiya, Atropatena kimi dövlətlər nəinki Azərbaycanın, həmçinin dünya tarixinə düşmüş yüksək səviyyədə təşkilatlanmış dövlətlər olmuşlar. Təkcə o qeyd olunmalıdır ki, Manna dövləti haqqında məlumat Assur qaynaqlarına əsasən, eramızdan əvvəl 843-cü ilə təsadüf edir, lakin qədim quldarlıq dövlətləri sayılan Afina, Sparta və ya Roma şəhər dövlətlərinin tarixləri isə eramızdan əvvəl 7-ci əsrdən o tərəfə gedib çıxmır.

Bir-birini əvəzləyən ictimai quruluşların dəyişməsi nəticəsində ölkəmizin ərazilərində ilkin feodal dövlətləri yaranmağa başlamışdır. Misal kimi Albaniya, Sasani dövlətlərini göstərə bilərik. Bu ərazilər ta qədimdən tarixçilərin diqqət mərkəzində olmuşlar.

Ölkəmiz haqqında yunan-roma tarixçiləri Strabonun, Ptolomeyin, Pilininin əsərləri tarixi baxımdan çox vacibdir. Strabon özünün «Tarix» əsərində yazır: «Albanlar Xəzər dənizi ilə iberiyalıların (indiki gürcülərin əcdadları) yaşadıqları ərazinin arasında yaşayırdılar. Onların ölkəsi şərqdə dənizlə, qərbdə iberiyalılar ilə həmsərhəd idi.»

Ərəblərin işğalı ilə islam dinin ölkəmizə gəlişi özü ilə dövlət quruluşunda da yeniliklər gətirmiş oldu. Bu dövrdə ərəb xilafətindən asılı olmayan Şirvanşahlar, Sacilər, Salarilər, Rəvvadilər və Şəddadilər kimi müstəqil dövlətlər meydana





gəldi. Daha sonra Şirvanşahlar dövlətini çıxmaq şərti ilə bu dövlətlərin əraziləri Atabəylər (Eldənizlər) dövlətinin tərkib hissəsinə daxil olmağa başladı. Eldənizlər dövləti bir əsrə yaxın mövcud olmuş və monqolların işğalından sonra süquta uğramışdır. O dövrdə - 1256-cı ildə ölkəmiz Monqol xanaqlığının 5-ci ulusuna (bölgəsinə) daxil edildi və bu ulusun rəhbəri Hülakü xan təyin olundu. Beləliklə paytaxtı Təbriz şəhəri olmaqla Hülakülər dövləti yarandı. Daha sonra 1256-1386-cı illər arasında hakimiyyət Çobanilər, sonra isə Cəlairilər sülalələrinin əlində mərkəzləşmiş oldu. 1386-cı ildə Təbrizin Əmir Teymur tərəfindən işğalından sonra ərzilər Teymurilər dövlətinin nəzarəti altında qalmağa balşadı. Bu işğal Qaraqoyunlu dövlətinin yaranmasına kimi davam etmişdir. Ümumiyyətlə, Azərbaycan torpaqlarının vahid mərkəzdən idarə olunması, oturuşmuş dövlətçilik ənənələrinin yaranması Səfəvilər dövlətinin adı ilə bağlıdır. 200 ildən artıq müddətdə mövcud olmuş bu dövlətdə rəsmi dil kimi Azərbaycan türkcəsindən istifadə olunmuş, çoxmillətli Azərbaycan xalqının formalaşması prosesi daha da güclənmişdir. XVIII əsrin ortalarından sonra Azərbaycan yerli feodallar arasında bölüşdürülməyə başlanıldı. Bu dövrdə ölkənin müxtəlif ərazilərində yaranmış xanlıqlar dövlətin parçalanmasına və Çar Rusiyasının Azərbaycan torpaqlarının işğal etməsinə rahat şərait yaratmışdır. 1828-ci ildə Türkmənçay müqaviləsi ilə rəsmiləşən bu işğal 1918-ci ilin may ayının 28-dək davam etmişdir. Məhz bu tarixdə şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti öz müstəqilliyini elan edir. 23 ay müstəqil olan bu dövlət bolşevik işğalından sonra süqut etmişdir. Nəhayət, 71 il Sovet İttifaqının tərkibinə daxil olan Azərbaycan dövləti 1991-ci il 18 oktyabr tarixində öz müstəqilliyini elan edir.





# 2.
# HÜQUQ NƏDİR VƏ AZƏRBAYCAN HÜQUQ TARİXİ HAQQINDA.




İstənilən cəmiyyət və dövlət insanlar arasında münasibətlərin nizamlandığı, ictimai qaydalara riayət olunduğu şəraitdə normal işləyə bilər. İctimai həyatın təşkilində, insanların davranışının və kollektivlərin fəaliyyətinin nizamlanmasında hüquq əhəmiyyətli rola malikdir. Beləliklə, hüquq dövlətin müəyyənləşdirdiyi və onun gücü ilə qorunan, hamı üçün məcburi davranış qaydalarının toplusudur.

Əziz məktəblilər, ümumiyyətlə, hüququ iki mənada başa düşmək lazımdır. Birincisi, hüquq yuxarıda deyildiyi kimi hamı üçün məcburi olan ümumi davranış qaydalarıdır. İkincisi, hüquq konkret şəxsə müəyyən hərəkəti etmək azadlığını verən imkandır. Məsələn, hər bir Azərbaycan vətəndaşının vətənimizin ərazisində sərbəst hərəkət etmək və ya özünə istənilən peşəni seçmək hüququ vardır. Bu qəbildən olan hüquqlar vətəndaşlara ölkə Konstitusiyası ilə verilmişdir.

Azərbaycanda hüquq çox qədim zamanlardan yaranmışdır. Bunun səbəbi vaxtilə ölkəmizin ərazisində qədim dövlətlərin mövcud olması ilə bağlıdır. Belə ki, hələ qədim quldarlıq dövlətlərində hüquq adət qaydalarına əsaslanırdı. Dövlətlərin daha da inkişaf etməsi ilə qanunlar meydana çıxmağa başladı. Bu qanunlar içərisində bizə məlum olan ilk qaydalar Avesta qanunları idi. Tarixi mənbələrə görə Avesta 21 kitabdan ibarət olan qanunlar toplusu idi. Və bu qanunlar 3 kitabda – «Vendidad», «Vispered», «Yasna» da göstərilmişdir. Əfsuslar olsun ki, Makedoniyalı İsgəndərin şərqə hücumu nəticəsində Avesta qanunların boyük hissəsi yandırılmış və günümüzədək gəlib çıxmamışdır.

Bildiyimiz kimi, Azərbaycanın bizim eranın 8-ci əsrdə ərəblər tərəfindən işğalınadək ölkədə hakimiyyət Sasanilərin əlində olmuşdur. Hətta Sasanilərin dövründə Avesta qanunlarına istinad olunmuş, lakin orta əsrlər dövründə yaranmış hüquqi abidələr içərisində «Matikan» qanunları xüsusi yer tutmuşdur.
Bu sənədə «Sasani Qanunnaməsi» də deyilir. Bu sənəd o dövrkü Azərbaycan hüququnun öyrənilməsi baxımından qiymətlidir.




Azərbaycanın ərəblər tərəfindən işğalından sonra ölkədə islam dini yayılmağa başladı və hüquqda müsəlman hüququ tətbiq olunmağa başladı. Əslinə qalsa, Azərbaycanda bu hüquqdan 1918-ci il Azərbaycan Demokratik Respublikasının yaranmasınadək istifadə olunurdu.

13-14-cü əsrlərdə Azərbaycanda monqolların işğalı dövründə mövcud olmuş Elxanilər dövləti müsəlman hüququndan başqa «Çingiz-xanın Yasası» əsasında hərəkət edir, bütün idarəetmə, təsərrüfat və gündəlik məsələlər bu qanunla nizamlanırdı. Bu qanundan 14-cü əsrin axırlarınadək istifadə olunmuşdur, çünki həmin dövrdə Azərbaycan əraziləri Əmir Teymur tərəfindən işğal olunduğundan ölkədə Teymurləngin Qanunnaməsi – «Tüzukati-Teymuri» tətbiq olunurdu. Daha sonrakı dövrdə Teymurilərin istilası zəiflədikcə bölgədə Qaraqoyunlu və Ağqoyunlu kimi feodal dövlətlər güclənməyə başladılar. Burada Ağqoyunlu hökmdarı Uzun Həsənin «Qanunnaməsi»ni xatırlamamaq olmaz. Həmin qanun əhalinin üzərinə qoyulmuş vergilərin dəqiq məbləğinin müəyyənləşdirilməsində, vergi məmurlarının özbaşınalığının aradan qaldırılmasında səmərəli vasitə idi.

Qeyd olunmalıdır ki, Azərbaycanda Səfəvi hökmranlığı dövründə də islam hüququ öz qüvvəsini saxlayırdı, lakin dünyəvi hüquq da inkişaf edirdi. O dövrün ən mühüm hüquqi sənədlərindən biri kimi Səfəvi Şahı I Təhmasibin qəbul etdiyi «Dəstur ül-əməl-i Şah Təhmasib» qanunnaməsi idi. Dövrümüzədək gəlib çatmamasına baxmayaraq, mənbələrə görə həmin qanunnamə 96 maddədən ibarət olmuşdur. Maraqlısı budur ki, həmin qanun hər kəsin məlumatı olsun deyə şəhərin mərkəzində daş üzərinə həkk olunmuşdu.

19-cu əsrin başlanğıcında Azərbaycanın Rusiya tərəfindən işğalından sonra müsəlman hüququ ilə bərabər ölkədə Rusiya qanunları da işləməyə başladı. Bu dövrdə mühüm hüquqi mənbə qismində «Rusiya imperiyasının tam qanunlar külliyatı»ndan istifadə olunurdu.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə isə ilk hüquqi sənəd Konstitusya statusunamalik olan İstiqlal Bəyannaməsi idi. Bu sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı elan olunmuş, onun sərhədləri müəyyənləşdirilmişdir. Lakin 23 ay sürən bu müstəqilliyə Sovet işğalı ilə son qoyulmuşdur. Sovet sosialist dövləti qurulduqdan sonra hüquq sahəsində inqilabi qanunçuluq, kollektivçilik və ümumi mülkiyyət ideyaları rəhbər tutulurdu. Ümumən sovet hakimiyyəti dövründə Azərbaycanda 4 dəfə konstitusiya qəbul olunmuşdur. Həmin tarixlər 1921, 1925, 1937 və 1978-ci illərə təsadüf edir. Lakin sovet ittifaqının dağılmasından sonra Azərbaycan öz müstəqilliyini elan edir ki, bu da 1991-ci ilin 18 oktyabrında «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı»nın qəbulu ilə nəticələnir. Məhz bu sənədlə müstəqil dövlətçiliyin hüquqi olaraq rəsmiləşdirilir. Bütün bu proseslər isə 1995-ci ilin 12 noyabr tarixində Azərbaycan Respublikasının Konstitusiyasının qəbulu ilə yekunlaşır. Bu barədə növbəti mövzumuzda ətraflı söhbət edəcəyik.




## KONSTİTUSİYAMIZ HAQQINDA;

Konstitusiya sözü latın dilindəki «constitutio» sözündən götürülmüşdür. Mənası «quruluş», «qurmaq», «təsis etmək» deməkdir. Bu sözdən ilk dəfə Qədim Roma imperatorluğunda ayrı-ayrı hüquqi sənədlərin adlandırılması üçün istifadə olunmuşdur. Orta əsrlərdə Avropada kral tərəfindən feodallara verilən səlahiyyətləri nəzərdə tutan sənədlər də sözün hərfi mənasına uyğun olaraq bu cür adlandırılırdı. İlk yazılı Konstitusiya 1787-ci ildə qəbul olunmuş və bu günə qədər qüvvədə olan ABŞ Konstitusiyasıdır.

Sovet hakimiyyətinin dağılmasından sonra ölkəmizdə 1995-ci ildə Respublika Prezidentinin təşəbbüsü ilə yeni Konstitusiyamızın layihəsi hazırlandı. Həmin ilin payızında Konstitusiyanı hazırlayan Komissiya ölkəmizin axırıncı Konstitusiya layihəsi üzərində işləri yekunlaşdırmış və 1995-ci ilin 12 noyabrında bu sənəd ümumxalq səsverməsinə çıxarılmışdır. Konstitusiyalı quruluşun əsaslarını möhkəmləndirərək Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizi respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi, dünyəvi dövlət kimi müəyyən etmişdir. Konstitusiyamız özündə ümumbəşəri dəyərləri təsbit etməklə aşağıdakı prinsipləri müəyyən edir:

- İnsan, onun hüquq və azadlıqları ali dəyərlərdir;
- İnsan hüquq və azadlıqlarının müdafiəsi dövlətin ali məqsədidir;
- Hakimiyyətin yeganə mənbəyi xalqdır;
- Sosial siyasət insanın layiqli həyatını və sərbəst inkişafını təmin edən şəraitin yaradılmasına istiqamətlənib;
- Mülkiyyətin bütün formaları tanınır və müdafiə olunur;
- Dövlət hakimiyyəti 3 qoldan – qanunverici (Milli Məclis), icra (Prezident) və məhkəmə hakimiyyətlərindən ibarətdir;

Azərbaycan Respublikasının Konstitusiyası ali hüquqi qüvvəyə, birbaşa təsirə malikdir və Azərbaycanın bütün ərazisində tətbiq olunur. Azərbaycanda qəbul olunan qanunlar Konstitusiyaya zidd olmamalıdır.

Konstitusiyamız 5 bölmə, 12 fəsil və 158 maddədən ibarətdir. Hər bir bölmə ictimai və dövlət həyatının müxtəlif sahələrini tənzimləyir. Yaddan çıxarmamaq lazımdır ki, bu 158 maddədən 48-i insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Ümumiyyətlə, qəbul olunduğu gündən bu günə kimi Konstitusiyamıza iki dəfə - 2002 və 2009-cu illərdə dəyişikliklər edilmişdir.

## HÜQUQUN SAHƏLƏRİ HAQQINDA;

Əziz məktəblilər, artıq dövrümüzdə hüquq sahəsi elə inkişaf etmişdir ki, onun sahələrə bölünmək zərurəti yaranmışdır. Bu, həm hüquq sahələrinin rahat öyrənilməsi üçün, həm də həmin sahələr arasında əlaqələrin müəyyən edilməsi baxımından əhəmiyyətlidir.

Hüquq sistemi böyük tərkib hissələrinə - hüquq sahələrinə bölünür. Hüquq sahələrini təşkil edən hüquq normaları aralarındakı fərqlərə baxmayaraq bir-biri ilə əlaqəlidir və onlar vahid sistemi yaradırlar.

Hüquq sahəsi – cəmiyyət həyatının müxtəlif sahələrində mövcud olan və xaraktercə bir-birinə oxşar ictimai münasibətləri nizamlayan, bir-biri ilə qarşılıqlı əlaqədə olan hüquq qaydalarının toplusudur.

Hüquq sistemi özündə aşağıdakı əsas sahələri birləşdirir: konstitusiya hüququ, inzibati hüquq, maliyyə hüququ, mülki hüquq, ailə hüququ, əmək hüququ, cinayət hüququ və aqrar hüquq.

İlk öncə,



**KONSTİTUSİYA HÜQUQU** haqqında danışaq. Azərbaycanın konstitusiya hüququnu tənzimləyən normaların əksəriyyəti Azərbaycan Respublikasının Konstitusiyasında və bir sıra digər qanunlarda toplanmışdır. Konstitusiya hüququ ilə insan və vətəndaşların hüquq və vəzifələri, dövlət hakimiyyəti və bələdiyyələrin sistemi, dövlət quruluşu, hüquq sistemi və digər məsələlər tənzimlənir.



**İNZİBATİ HÜQUQ** da həmçinin konstitusiya hüququ ilə birbaşa əlaqəlidir, çünki inzibati hüquq dövlət orqanları sahəsində yaranan idarəetmə münasibətlərini tənzimləyir.



**MALİYYƏ HÜQUQU** dövlətin maliyyə prosesi və büdcə fəaliyyətində, bankların və digər maliyyə idarələrinin fəaliyyətində meydana gələn münasibətləri tənimləyir.



**MÜLKİ HÜQUQ** əmlak münasibətlərini nizamlayan hüququ sahəsidir. Onun mühüm hissəsini mülkiyyət münasibətləri, vərəslik münasibətləri və s. təşkil edir.



**AİLƏ HÜQUQU** da mülki hüquqla birbaşa əlaqəlidir. Çünki ailə hüququ da ailə münasibətlərində ortaya çıxan əmlak məsələlərini tənzimləyir.



**ƏMƏK HÜQUQU** iş münasibətlərinin meydana gəlməsi, onun davam etdirilməsi və ləğv edilməsinin şərtlərini müəyyən edir, iş vaxtını və istirahət vaxtının müddətini təyin edir.



**CİNAYƏT HÜQUQU** normalarının köməyi ilə dövlət hansı əməllərin cinayət olub-olmadığını və onlardan hansılarının cəzalandırılmalı olması məsələlərini həll edir. Cinayət sayılan əməllərin hamısı vahid şəkildə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində əks olunmuşdur.



**AQRAR HÜQUQ** təşkil edən hüquq normaları torpaqdan istifadə ilə bağlı münasibətləri nizamlayır (torpaqdan səmərəli istifadə hüququ və s.).

Əziz şagirdlər, təbii ki, hüququn digər sahələri də vardır, lakin nəzərə almaq lazımdır ki, həmin hüquq sahələri yuxarıda sadalanan əsas hüquq sahələrinin törəmələridirlər.


3

# 3. İNSANLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ:



### İNSAN HÜQUQLARI NƏ DEMƏKDİR?

İnsan hüquqları dil, din, irq, cins, iqtisadi və sosial vəziyyət kimi heç bir fərq qoyulmadan bütün insanların yalnız insan olmaları səbəbindən sahib olduqları hüquqlardır. Bu hüquqlar şəxsə dövlət tərəfindən «hədiyyə» edilməmişdir. Əksinə, dövlətin vəzifəsi bu hüquqları qorumaq və təmin etməkdir.

İnsan hüquqları dövlətlə qarşılıqlı münasibətdə hər bir insana aid olan əsas əxlaqi və hüquqi haqlardır. Təsadüfi deyil ki, 1789-cu il Fransa inqilabından sonra «İnsan və Vətəndaş hüquqları haqqında» və Birləşmiş Millətlər Təşkilatı tərəfindən 1948-ci ildə «Ümumdünya İnsan hüquqları haqqında» bəyannamələr qəbul olunmuşdur. Bu sənəd ona görə ümumdünyəvidir ki, onu dünyanın bütün dövlətləri tanımaq məcburiyyətindədir və orada insanlara verilmiş hüquq və azadlıqlar heç bir dövlət tərəfindən məhdudlaşdırıla bilməz.

İnsan hüquqları ideyası üç əsas fikrə əsaslanır:

- Hər bir insan doğulduğu andan təkrarolunmaz və dəyərli bir varlıqdır, onun öz müstəqilliyi və ləyaqəti var; insanın ləyaqətinə toxunaraq, onun müstəqilliyinə müdaxilə etməyə dövlətin ixtiyarı yoxdur;
- Hər bir hakimiyyətin, o cümlədən dövlət hakimiyyətinin öz hədd-hüdudu vardır;
- Hər kəs öz hüquqlarını qoruyaraq dövlət orqanı qarşısında tələblər irəli sürə bilər.

Ayrılmaz hüquqları insan ona görə doğulduğu gündən  qazanır ki, çünki o hüquqlar insanın anadan olması ilə yaranır və vəfatı ilə sona çatır. Bu hüquqlar eyni dərəcədə həm cəmiyyətin yaşlı nümayəndəsinə, həm uşağa, həm hörmətli adama, həm də cinayətkara məxsus olur.

Dövlət hakimiyyətinin hədd-hüdudu var. Heç bir qanun, hətta demokratik bir dövlətdə çoxluğun iradəsilə qəbul olunmuş qanun belə, insan hüquqlarını poza bilməz. İnsan hüquqları çoxluğun hakimiyyətinə məhdudiyyət qoyur.

İnsan  hüquqlarının bir qismi ayrılmaz hüquqlardır! Dövlət insanı onun hüquqlardan məhrum edə bilməz. Hətta insanın özü belə könüllü olaraq öz hüquqlarından imtina edə bilməz. Əgər bir adam sənəd imzalayıb könüllü şəkildə azadlıqdan imtina edər və özünü qula çevirərsə, bu hərəkət (yəni imzalanmış sənəd) hüquqi nəticə yaratmaz. Lakin insan əmlaka mülkiyyət hüququndan imtina edə (məsələn, istifadə etmədiyi paltarlarını tullamaqla) bilər, çünki mülkiyyət hüququ insanın ayrılmaz hüquqlarından deyil.

İnsan dövlətdən öz haqqını tələb edərkən heç də məhkəmədə sübuta yetirməyə borclu deyil ki, onun anadan olan gündən filan hüququ var. Dövlətə (adətən, bizim hüquqlarımızı pozan dövlət məmurlarına) etiraz etmək haqqı insan hüquqlarıideyasının əsas müddəalarından biridir.

İnsan hüquqları ümumi deyil, şəxsə aid fərdi məsələdir. Ona görə də insan hüququ deyəndə 3-5 nəfərin hüquqları deyil, bu azlığa daxil olan konkret şəxsin hüquqları nəzərdə tutulur.

Ölkəmizdə əsas insan hüquqları yalnız Konstitusiyada göstərilmişdir və bu qanun parlamentin qəbul etdiyi adi qanunlardan yüksəkdə dayanır. Odur ki, insan hüquqlarını bəzən «konstitusion hüquqlar» da adlandırırlar.

İnsan hüquqları yalnız insanın dövlətlə qarşılıqlı münasibətlərinə aid bir məsələdir. Əgər kimsə öz hərəkətləri ilə hər hansı bir insana zərər vurursa, bu artıq insan hüququ məsələsi yox, məsuliyyət məsələsidir. Hüquqi məsuliyyətin nə demək olduğunu isə sonrakı mövzularda öyrənəcəyik.

## BƏRABƏRLİK HÜQUQU;

Konstitusiyamızın 25-ci maddəsi bərabərlik dedikdə nəyin nəzərdə tutulduğunu aydın göstərir.

Bərabərlik hüququ, ondan faydalanan bütün şəxslərə eyni cür davranılmasını və həmin şəxslərə fərq qoyulmamasını tələb edir. Başqa sözlə, bərabərlik hüququ qanunların tətbiqi zamanı eyni vəziyyətdə olan şəxslərə fərqli qaydaların şamil olunmasının və imtiyazlı şəxs və qrupların yaradılmasının qarşısını alır. Lakin nəzərə almaq lazımdır ki, bəzi hallarda bir sıra şəxslərə haqlı səbəbdən dolayı fərqli qaydaların şamil olunması bərabərlik hüququna zidd sayılmır, əksinə, belə şəxslərin vəziyyətlərinin onlara fərqli yanaşılmasını zəruri edir. Məsələn, Əmək Məcəlləsində qadınlar və yaşı 18-dən az olan işçilərin işləmələrinin qadağan olunan iş yerləri nəzərdə tutulmuşdur.





Qanun hamıya eyni cür təsir göstərir, hər kəsə eyni hüquq və vəzifələr verir. Çünki qanunlar yazılanda orada insanlar cinsinə və ya digər əlamətlərinə görə fərqləndirilmirlər. Qanun qarşısında kişi və qadına fərq qoyulmur. Eynilə də cinayət törətməyə görə məhkəmə tərəfindən cəza təyin edilərkən qadınla kişi arasında fərq qoyulmur. Bundanbaşqa, biznes və ya yaradıcılıqla məşğul olmaq istəyən qadın və kişi eyni hüquqlara sahibdirlər. Fərqlilik təkcə insanların cinsi ilə yekunlaşmır. Belə ki, dövlətimiz irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara və digər ictimai birliklərə üzvlüyündən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konstitusiyamızda hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti nümayəndələri ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

## YAŞAMAQ HÜQUQU;

İnsanın həyatı ali dəyər olduğundan qanunla qorunur. Yaşamaq hüququ hər bir insanın təbii və ayrılmaz hüququdur. Elə buna görədir ki, bu hüquq insan hüquqlarının şahı adlanır. Əslinə qalsa, yaşamaq hüququ nəinki hüquqi, hətta fəlsəfi anlayışdır. Bu anlayış ətrafında uzun illər filosoflar və hüquqşünaslar çoxsaylı araşdırmalar aparmışlar.

Konstitusiyamızın 27-ci maddəsində hər kəsin yaşamaq hüququ olduğu qeyd olunmuşdur. Yəni bu hüququn toxunulmaz olduğu göstərilir. Çünki insanın həyatı ən ali dəyərdir və insanı həyatdan məhrum etməyə heç kəsin haqqı yoxdur. Lakin burada bir sıra istisnalar mövcuddur. Məsələn müharibə şəraitində ölkə ərzisinə daxil olan düşmən əsgərlərə qarşı silah işlədilməsinə icazə verilir. Həmçinin qanunla nəzərdə tutulmuş bir sıra hallarda - cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi hallarında da insana qarşı silah işlədilməsinə yol verilir.

Yaşamaq hüququ özü-özlüyündə mövcud ola bilməz. İnsanlar üçün bu hüququ dövlət təmin etməlidir. Bunun üçün dövlət insanları, həmçinin öz vətəndaşlarını istənilən cinayət və qəsddən qorumaq vəzfiəsi daşıyır. Əgər insanlar belə mühafizə ilə təmin olunmasa, yaşamaq hüququndan danışmaq mənasız olardı. Elə hərbi və polis qüvvələrinin yaradılmasında ən birinci məqsəd təkcə dövlətin qorunmasından deyil, həmçinin dövləti formalaşdıran insanların mühafizəsindən ibarətdir. Çünki təhlükəsiz yaşayış olmayan yerdə normal fəaliyyət göstərən dövlət haqqında danışmaq mümkün olmazdı.

## AZADLIQ HÜQUQU;

Əvvəlki mövzularımızdan bildiyimiz kimi azadlıq hüququ ilk dəfə 1789-ci il Fransanın İnsan və vətəndaş hüquqları haqqında Bəyannamədə, həmçinin 1791-ci il ABŞ-nin İnsan hüquqları haqqında Billdə (qanun) göstərilmişdir.

Konstitusiyamızın 22-ci maddəsinə əsasən, hər kəsin azadlıq hüququ vardır. Azadlıq hüququ insana digər insanların və cəmiyyətin hüquqlarına müdaxilə etmədən istənilən hərəkəti etmək imkanı verir. Azadlıq hüququ özlüyündə bir sıra hüquqları əhatə edir. Bura insanların fərdi hüquqları – yaşayış yerini seçmək, istədiyi yerə getmək hüquqları daxildir. Qanuni surətdə Azərbaycan Respublikasının ərazisində olan hər kəs sərbəst hərəkət edə bilər, özünə yaşayış yeri seçə bilər və Azərbaycan Respublikasının ərazisindən kənara gedə bilər. Həmçinin əmək hüquqları – istədiyi peşə ilə məşğul olmaq, siyasi hüquqlar – fikir azadlığı və seçkilərdə iştirak etmək hüquqları azadlıq hüququnun tərkib hissəsinə daxildirlər. Məhz bu hüquqları təmin etmək məqsədi ilə köləlik beynəlxalq cinayət kimi tanınmışdır.

Konstitusiyamıza əsasən, azadlıq hüququna yalnız qanunla nəzərdə tutulmuş qaydada tutulma, həbsəalma və ya azadlıqdan məhrumetmə yolu ilə məhdudiyyət qoyula bilər. Lakin belə məhdudlaşdırma şəxsin qanunları pozması nəticəsində və məhkəmə qərarı ilə baş verə bilər. Ölkəmizin qanunlarına əsasən, şəxs polis tərəfindən məhkəmə qərarı olmadan 48 saatdan artıq saxlanıla bilməz. Bu müddətdən sonra, o, ya buraxılmalıdır, ya da məhkəmə qərarı ilə həbsdə saxlanılmalıdır.

Azadlığın məhdudlaşdırılması həmçinin konstitusiya ilə müəyyən olunmuş vəzifələrin icrası ilə də baş verə bilər. Məsələn, hərbi xidmət keçmə vəzifəsinin yerinə yetirilməsi zamanı.



## MÜLKİYYƏT HÜQUQU;

Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 17-ci maddəsinə əsasən hər bir insan təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq huququna malikdir və heç kim öz əmlakından özbaşınalıqla məhrum edilməməlidir. Konstitusiyamızın 29-cu maddəsinə əsasən hər kəsin mülkiyyət hüququ vardır. Yəni şəxs ona məxsus əmlaka öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona sərəncam vermək hüququna malikdir. Buna görə də mülkiyyət hüququ, o cümlədən xüsusi mülkiyyət hüququ qanunla qorunur. Əmlakdan istifadə dedikdə ondan fayda götürmək nəzərdə tutulur. Əmlaka sərəncam vermək dedikdə isə həmin əmlakı kiməsə bağışlamaq, satmaq, istifadəyə və ya icarəyə vermək hüququ nəzərdə tutulur.

Hər kəsin mülkiyyətində daşınar (məsələn, telefon, noutbuk, ayaqqabı və s.) və daşınmaz (məsələn, ev, torpaq və s.) əmlak ola bilər.

Heç kəs məhkəmənin qərarı olmadan mülkiyyətindən məhrum edilə bilməz. Əmlakın tam şəkildə dövlət tərəfindən alınmasına qanun icazə vermir. Dövlət ehtiyacları üçün insanların əmlakı alınarsa, bu zaman qabaqcadan onun dəyəri ədalətli şəkildə ödənilməlidir.



## İNSANLARIN VƏZİFƏLƏRİ VƏ BU VƏZİFƏLƏRİN ƏSASI NƏDİR?

Yuxarıda dövlətin bizim hüquq və azadlıqlarımızı təmin etmək vəzifəsi daşıdığını sizin nəzərinizə çatdırdıq. Yadda saxlamaq lazımdır ki, dövlətin öz vəzifələrini icra edə bilməsi üçün bizim də öz vəzifələrimizi yerinə yetirməyimiz zəruridir.

Vəzifə insanların zəruri və məcburi davranışıdır. Ümumi qəbul olunmuş qaydaya görə dövlət insan hüquqlarının təmin edilməsi üçün öhdəlik daşıyır. Bu öhdəliyin qarşılığında dövlət onun tabeliyində olanlardan müəyyən vəzifələr tələb etmək hüququna malikdir. Dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Ona görə də dövlət insanlardan tələb etdiyi vəzifələri yazılı şəkildə qanunlarda göstərmişdir. Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası hər kəsin qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək, tarixi və mədəniyyət abidələrini qorumaq, ətraf mühiti qorumaq vəzifələrinin olduğunu qeyd edir. Qanunda göstərilməyən vəzifələri insanlar yerinə yetirmək məcburiyyətinə deyillər, çünki insanlar üçün yalnız qanunlarda göstərilmiş vəzifələri yerinə yetirməlidirlər.

Cəmiyyətdə digərləri ilə qarşılıqlı əlaqədə olan insan həm cəmiyyət, həm də öz həmvətənləri ilə münasibətdə vəzifələrə malik olmaya bilməz. Buna görə də vəzifə, insanların hüquq və azadlıqları kimi əhəmiyyətlidir. Hüquqlar və vəzifələr isə bir-biri ilə bağlıdırlar və bir-birindən asılı olmadan mövcud ola bilməzlər. İnsan Hüquqları haqqında Ümumi Bəyannamənin 1-ci maddəsində deyilir: «Bütün insanlar azad, hüquq və ləyaqətlərinə görə bərabər doğulurlar. Onlar dərrakəyə və vicdana malikdirlər və bir-birilə qardaşlıq ruhunda davranmalıdırlar». Burada «qardaşlıq» dedikdə o başa düşülür ki, əgər qarşındakı insan sənin qardaşındırsa, deməli siz bərabərsiniz və siz bərabər olmaq üçün eyni hüquq və vəzifələrə maliksiniz. Deməli sizlərdən heç birinin nə vəzifəsi, nə də hüquqları digərindən artıq deyildir. Bu bərabərliyi təmin etmək üçün isə hər bir insan qarşıdakıların hüquq və vəzifələrinə hörmət etməlidir. Konstitusiyamızın 72-ci maddəsində hər bir şəxsin Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli olduğu, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli olduğu və qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməli olduğu qeyd olunmuşdur.

## VƏTƏNƏ SƏDAQƏT VƏ ONUN MÜDAFİƏSİ;

Hamımıza hələ ibtidai siniflərdən məlumdur ki, vətən necə müqəddəs anlayışdır. Hətta müqqəddəs olduğu üçün onu «Ana vətən» də adlandırırıq. İnsanlar müəyyən ərzidən yaşayırlar. Orada onların ulu əcdadları dünyaya gəlmiş və həmin torpağın verdiyi nemətlərlə öz həyatlarını sürdürmüşlər. Bu o deməkdir ki, həmin torpaq, ərazi, vətən olmasaydı, həyat davam etməzdi və həyatın mənası da olmazdı. Elə buna görə uşaq anasız yaşaya bilmədiyi kimi, insan da torpaqsız, vətənsiz yaşaya bilməz.

Həyatda heç nə insana havayı verilmədiyi kimi torpaq da, vətən də insana havayı verilməmişdir. Bunun qarşılığında Azərbaycan vətəndaşı olaraq hamımız vətənimizə sədaqətli olmalı, hər zaman onu qorumağa qadir olmalıyıq. Konstitusiyamızın 74-cü maddəsində vətənə sədaqətin müqəddəs olduğu deyilir. Vətənə sədaqət yalnız onun əsgərlik çəkməklə və ya müharibə zamanı döyüşməklə müdafiə olunması deyil, həmçinin şəxsin hər hansı vəzifədə işləyərkən öz vəzifələrini vicdanla və layiqincə yerinə yetirməyi ilə ölçülür. Elə bu səbəbdəndir ki, ölkəmizdə dövlət qulluğuna qəbul olunan hər bir şəxs səadqət andı içir. Qanuna görə vəzifəyə seçilmiş qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən, Azərbaycan Respublikası Konstitusiyasına sadiq qalacağına and içmiş şəxs dövlətə qarşı cinayətdə, habelə dövlətə qarşı qiyamda və ya dövlət çevrilişində təqsirləndirilibsə və bu məhkum olunubsa, həmin vəzifədən getmiş sayılır və bir daha bu vəzifəni tuta bilməz.



Bundan başqa, Azərbaycan vətəndaşı olaraq hər birimiz vətənimizi müdafiə etməyə borcluyuq. Bu həm Konstitusiyamızın 76-cı maddəsinin, həm də vicdanımızn tələbidir. Vətəni müdafiə Azərbaycan vətəndaşlarının nəinki vəzifəsi, hətta borcudur. Bunun üçün ölkə vətəndaşları qanuna uyğun olaraq hərbi xidmət keçirlər. Hərbi xidmət dövrü özlüyündə hazırlıq hesab olunur və vətəndaşlar həmin dövdrə hərbin sirlərini öyrənirlər ki, düşmən tərəfindən istənilən an başa verə biləcək hücumlara qarşı hazırlıqlı olsunlar. Hərbi hazırlığı olmayan insan vətənini lazımi səviyyədə müdafiə edə bilməz.

## ƏTRAF MÜHİTİN VƏ TARİXİ ABİDƏLƏRİN QORUNMASI

Ətraf mühitin qorunması vəzifəsi, tarixi və mədəniyyət abidələrinin mühafizəsi vəzifəsi insan və vətəndaşların digər vəzifələri ilə müqayisədə yeni anlayışdır. Həmçinin bu vəzifələr bir-birindən ayrı təsəvvür edilmir. Bu səbədən BMT 1972-ci ildə «Ümumdünya mədəni və təbii irsin qorunması haqqında» Konvensiyanı qəbul etmişdir.

Konstitusiyamızın bu tələbi təkcə Azərbaycan vətəndaşları üçün deyil, həm də ölkəmizin ərazisində daimi və ya müvəqqəti yaşayan hər bir insana aiddir.

Ətraf mühit dedikdə bura torpaq, yeraltı və yerüstü sular, atmosfer, bitki və heyvanat aləmi, həmçinin planetimizin ozon qatı aiddir.

19-cu əsrin sonlarından etibarən dünyada sənayeləşmənin yüksək sürətlə artması, çoxsaylı zavod və fabriklərin tikilməsi, həmçinin dünya əhalisinin yüksək artımı nəticəsində ərzaq və içməli su qıtlığının yaranması ətraf mühitin qorunmasını zəruri etmişdir. Ona görə ki, çirkili hava və kifayət qədər içməli su ehtiyatı olmayan yerdə yaşayış mümkün deyildir. Hamımız bilirik ki, təmiz hava və suyun mənbəyi meşələr və dağ buzlaqlarıdır. Alimlərin hesablamalarına görə dünyada meşələrin sahəsi 2 dəfə azalmışdır.

Buna görə də insanlar təbiəti qorumalı, ətraf mühiti mühafizə etməli, təbii ehtiyatlardan qənaətli şəkildə istifadə etməlidirlər. Çünki bütün bu sadalananlar təkcə bu gün yaşayan insanlara aid deyildir, həm də gələcək nəsilə aiddir. Ona görə də təbiət, ətraf mühit bizə verilmiş əmanətdir və insan olaraq hamımızın borcu onu gələcək nəsillər sağlam və bütöv çatdırmaqdır.

Digər məsələ tarixi və mədəniyyət abidələrinin qorunmasıdır. Tarix dərslərindən hamımıza məlumdur ki, dünya tarixində iz buraxmış ən böyük müharibələr I və II Dünya Müharibələridir. Bu müharibələr təkcə milyonlarla insan həyatı hesabına başa gəlməmişdir, həmçinin dünyanın müxtəlif ölkələrində yerləşən neçə-neçə tarixi abidələrin dağıntısına səbəb olmuşdur. Belə tarixi abidələrin qorunması və gələcəkdə müharibə dağınıtısına çevrilməməsi üçün BMT-nin Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatı dünya üzrə mədəni və tarixi abidələrin siyahıya alınmasını təşkil edir.

Onu da bilməlisiniz ki, Qobustan qayaüstü rəsmləri abidə Qoruğu, Şirvanşahlar sarayı və Qız Qalası tarixi abidələri də ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir.

Göründüyü kimi, Azərbaycan Respublikasının vətəndaşı olmaq bizə bir sıra hüquq və azadlıqlar verməklə birlikdə üzərimizə müəyyən vəzifələr də qoyur. Biz üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirə bilsək, konstitusion hüquq və azadlıqlarımızın həyata keçirilməsinə və təmininə də şərait yaratmış olarıq.




TAQSIRKAR

# 4.
# MƏHKƏMƏ HAKİMİYYƏTİ.





## MƏHKƏMƏ NƏDİR?

Məhkəmə ədalət mühakiməsini həyata keçirən yeganə dövlət orqanıdır. Ədalət mühakiməsi vasitəsi ilə məhkəmə qanunların pozulması nəticəsində yaranan anlaşılmazlıqları aradan qaldırır. Konstitusiyamıza əsasən, Azərbaycanda məhkəmə hakimiyyətini məhkəmələr həyata keçirir. Hakimiyyətin hər bir qolu demokratik cəmiyyətdə müəyyən rolu yerinə yetirir. Demokratik cəmiyyətdə məhkəmə hakimiyyətinin rolu isə müxtəlif hüquqi məsələlərdə Konstitusiyada, qanunlarda nəzərdə tutulmuş tələblərin aliliyini təmin etməkdir.

Beləliklə, məhkəmə hakimiyyəti insan hüquq və azadlıqlarını müdafiə edən və dövlət orqanlarının fəaliyyətinin qanunun tələblərindən kənara çıxmamasına nəzarət edən dövlət hakimiyyətinin bir qoludur. Dövlət hakimiyyətinin bir qolu olmaqla məhkəmə hakimiyyəti dövlət hakimiyyətinin bütün əlamətlərinə malikdir: Digər dövlət orqanları kimi məhkəmələrin qərarları hamı üçün məcburidir və məhkəmələr müstəqildirlər. Yəni məhkəmə öz qərarını heç kimin təsirindən asılı olmayaraq qəbul edir. Bununla belə, məhkəmələr öz qərarlarını yalnız məhkəmə prosesi zamanı müəyyən olunmuş xüsusi qaydalara əsasən verə bilir. Məhkəmlərin müstəqilliyi yalnız qanunla məhdudlaşdırılır.

Konstitusiyamızın 125-ci maddəsinə əsasən məhkəmə prosesi həqiqətin müəyyən edilməsini təmin etməlidir. Bundan başqa məhkəmələr konstitusiya nəzarətini həyata keçirir, dövlət orqanları və vəzifəli şəxslərinin qərarlarının qanuniliyinə nəzarət edir, məhkəmə qərarlarının, habelə digər orqanların qəbul etdikləri qərarların icrasını təmin edir, həmçinin qanunlar barəsində şərhlər verir.



Məhkəmə sadalanan bütün bu işləri məhkəmə prosesi vasitəsi ilə həyata keçirir. Və məhkəmə prosesi bilavasitə məhkəmə binasında keçirilir. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar. Məhkəmə prosesi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir. Bütün məhkəmə proseslərində işlər açıq aparılır. İşə qapalı iclasda baxılmasına yalnız o halda icazə verilir ki, məhkəmə açıq icraatın dövlət, peşə və kommersiya sirrinin açılmasına səbəb olacağını güman edir, ya da vətəndaşların şəxsi və ya ailə həyatı sirlərini qorumaq zərurətini görür.

## HAKİM VƏ MƏHKƏMƏDƏ TƏRƏFLƏR KİMLƏRDİR?

Hakim məhkəmə prosesini aparan, qanunlara riayət edilməsinə nəzarət edən, təsqirli şəxsləri cəzalandırmaq səlahiyyətinə malik olan şəxsdir. Hakimlər həmişə peşəkar hüquqşünas olur və hüquq elminin həm nəzəri, həm də təcrübi tərəflərinə dərindən bələd olurlar. İstintaq orqanları tərəfindən təqdim olunan işi dərindən araşdırmaqla hakim şəxsin təqsirli (günahkar) olub-olmadığını müəyyən edir, habelə cinayət və mülki qanunların hansı maddələrinin tətbiq olunmalı olduğunu dəqiqləşdirir. Hakim öz qərarını yalnız məhkəmədə tərəflərin bütün fikirlərini dinlədikdən sonra qəbul edə bilər.

Konstitusiyamıza əsasən, hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. Hər hansı bir şəxs tərəfindən və hər hansı bir səbəbdən məhkəmə işinin aparılmasına məhdudiyyət qoyulması, təsir, hədə və müdaxilə edilməsi qanunsuzdur.

Məhkəmədə hakimdən başqa digər iki tərəf də iştirak edir. Bu iki tərəf məhkəmə prosesi zamanı birbirləri ilə çəkişirlər, yəni ziddiyyətli məsələ üzrə mübahisə edirlər. Gəlin, bu iki tərəf haqqında bir az ətraflı danışaq.





Məhkəmə prosesi zamanı şəxslərdən biri **iddiaçı** adlanır ki, ona işin xüsusiyyətindən asılı olaraq ittihamçı da deyilir. Ümumiyyətlə, iddiaçı məhkəməyə ərizə və ya şikayətlə müraciət edən şəxsdir. İddiaçı həmin şikayət ərizəsində hansı məsələ barədə şikayətçi olduğunu, kimdən şikayət etdiyini və məhkəmədən nəyi xahiş etdiyini göstərməlidir. Hər bir Azərbaycan vətəndaşı hüquqlarının pozulması ilə əlaqədar məhkəməyə birbaşa özü, ya da ki, nümayəndəsi vasitəsilə müraciət edə bilər. Məhkəmə isə öz növbəsində iddiaçının şikayət ərizəsini araşdıraraq ədalətli qərarın çıxarılmasına çalışmalıdır.

Məhkəmə prosesinin digər tərəfi **cavabdeh** adlanır. Cinayət işlərində cavabdehə təqsirləndirilən şəxs deyilir. Təqsirləndirilən şəxs də öz növbəsində həm də cavabdeh şəxsdir. Çünki cinayət törətmiş şəxs öz qanunsuz hərəkətlərinə cavabdehlik daşıyır. Cavabdeh iddiaçının təxmin olunan hüquqlarını pozan şəxsdir. Əgər iddia yoxdursa, deməli cavabdeh də yoxdur. Məhkəmə prosesi zamanı cavabdeh iddiaçının gətirdiyi sübutlara qarşı öz sübutlarını ortaya qoymalıdır ki, hakim həmin sübutları qiymətləndirərək, yəni vəziyyəti ölçüb biçərək ədalətli qərar çıxarsın.

## MƏHKƏMƏ İNSTANSİYALARI;

Ölkəmizdə məhkəmələr üçpilləli sistem üzrə işləyirlər. Bunlar **birinci instansiya, apellyasiya və kassasiya** instansiyası məhkəmələridir. Mövzunu daha dərindən anlamaq üçün qısaca da olsa «instansiya», «apellyasiya» və «kassasiya» sözlərinin nə demək olduğuna aydınlıq gətirək.



«İnstansiya» mərhələ, etap, dərəcə mənasında işlədilir. «Apellyasiya» latın sözü olan «appellatio»dan götürülmüşdür. Mənası müraciət, şikayət etmək deməkdir. «Kassasiya» isə latın sözü olan «cassatio» dan götürülmüşdür. Mənası ləğv etmək deməkdir.

Ölkəmizin qanunlarına görə hər bir şəxs hüquqlarının pozuntusu ilə bağlı ilk öncə birinci instansiya məhkəmələrinə müracitə edə bilər. Əgər bu məhkəmə həmin şəxsin xeyrinə qərar çıxarmasa, o zaman apellyasiya məhkəməsinə müracət etmək hüququ vardır. Əgər apellyasiya məhkəməsi də şəxsi qane edən qərar çıxarmazsa, onda şəxs kassasiya məhkəməsi olan Ali Məhkəməyə müraciət edə bilər. Gördüyünüz kimi, qanunlar vətəndaşın hüquqlarının təmin edilməsi üçün bu cür mexanizm yaratmışdır.

Hazırda Azərbaycan Respublikasında birinci instansiya məhkəməsi kimi rayon (şəhər) məhkəmələri, ərazilər üzrə fəaliyyət göstərən hərbi, yerli inzibati-iqtisadi və ağır cinayətlər məhkəmələri fəaliyyət göstərirlər.

Yeni məhkəmə sisteminə uyğun olaraq ölkənin 6 bölgəsində apellyasiya məhkəmələri fəaliyyət göstərir.

Kassasiya instansiyası məhkəməsi funksiyasını Azərbaycan Respublikasının Ali Məhkəməsi yerinə yetirir.

Ölkəmizdə fəaliyyət göstərən digər bir məhkəmə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsidir. O, ölkənin ali konstitusiya ədalət mühakiməsi orqanı olmaqla Azərbaycan Konstitusiyasının aliliyini təmin edir. Yəni qəbul olunan qanunların Konstitusiyamıza uyğun olub-olmadığını müəyyən edir.

Bundan başqa 2004-cü ildə Azərbaycanda məhkəmə hakimiyyətinin özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası yaradılmışdır. Yeni qanuna əsasən, hakimlərin toxunulmazlığına və səlahiyyət müddətlərinə yenidən baxılmış, hakim vəzifəsinə müddətsiz təyinat müəyyən olunmuş, onların intizam məsuliyyəti məsələləri bilavasitə Məhkəmə-Hüquq Şurasının səlahiyyətinə aid edilmiş, hakim vəzifələrinə namizədlərin seçilməsi üçün yeni qurum - Hakimlərin Seçki Komitəsi yaradılmışdır.

Məhkəmə-Hüquq Şurasının tərkibi 15 nəfərdən ibarətdir və əsasən hakimlərdən, habelə ölkə Prezidentinin, Milli Məclisin, prokurorluğun, Vəkillər Kollegiyasının nümayəndələrindən və digər şəxslərdən ibarət formalaşdırılır. Azərbaycan Respublikasının Prezidenti Konstitusiyamıza uyğun olaraq məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır.


KONSTITUSYA

# 5.
# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA MƏHKƏMƏSİ.




### KONSTİTUSİYA MƏHKƏMƏSİ HAQQINDA;

Ölkəmizdə Konstitusiya Məhkəməsi ilk dəfə 1998-ci ildə yaradılmışdır. Qanuna əsasən, digər məhkəmələr kimi Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir. Konstitusiya Məhkəməsi ölkəmizdə məhkəmə hakimiyyətini həyata keçirən məhkəmələrdən biridir.

Konstitusiya Məhkəməsində işlərə məhkəmə iclasları vasitəsi ilə baxılır. Konstitusiya Məhkəməsi öz işini Azərbaycan Respublikası Konstitusiyasının aliliyi, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurur. Yəni Konstitusiya Məhkəməsi çıxardığı qərarlarda hər zaman birinci olaraq Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və şikayət edilmiş digər məhkəmələrin qərarlarında Konstitusiyanın tələblərinin pozulub-pozulmadığını aydınlaşdırır. Konstitusiya Məhkəməsi öz fəaliyyətində müstəqildir və bu məhkəmənin hakimləri yalnız qanun qarşısında məsuliyyət daşıyırlar. Konstitusiya məhkəməsinin iclaslarında hakimlər kollektiv şəkildə iştirak edirlər və qərar qəbul edərkən tək hakimin adından deyil, kollektiv halda qərar qəbul edirlər. Həmçinin məhkəmə iclasları açıq aparılır, yəni aşkarlıq təmin olunur. Çünki bu məhkəmənin qərarı təkcə bir və ya bir neçə nəfərə deyil, ümumi təsir qüvvəsinə malikdir.

Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən digər dövlət orqanlarından və ya şəxslərdən asılı deyildir.

Konstitusiyamıza görə, hər kəs onun hüquq və azadlıqlarını pozan dövlət orqanlarının, bələdiyyə və məhkəmə qərarlarından pozulmuş hüquqlarının bərpa edilməsi üçün Konstitusiya Məhkəməsinə şikayət verə bilər.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarı Azərbaycan Respublikası ərazisində məcburi qüvvəyə malikdir. Konstitusiya Məhkəməsinin qərarları qətidir, ləğv edilə, dəyişdirilə bilməz. Konstitusiya Məhkəməsinin qərarları rəsmi dövlət qəzetində dərc olunur.

Konstitusiya Məhkəməsinin rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Konstitusiya Məhkəməsinin rəsmi emblemidir.

Konstitusiya Məhkəməsinin hakimləri məhkəmə iclaslarında hakimlərin xüsusi geyimində (mantiyada), Azərbaycan Respublikası prezidentinin andiçmə mərasimində və digər dövlət tədbirlərində isə xüsusi rəsmi geyimdə olmalıdırlar.

Konstitusiya Məhkəməsi Bakı şəhərində yerləşir.



## KONSTİTUSİYA MƏHKƏMƏSİNİN QURULUŞU;

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Prezidentinin təklifinə əsasən Azərbaycan Respublikasının Milli Məc lisi tərəfindən təyin olunan doqquz hakimdən ibarətdir. Yeddi hakim təyin olunduqda Konstitusiya Məhkəməsi öz işinə başlaya bilər. Ümumiyyətlə, hakimlər 15 il müddətinə təyin olunurlar və vəzifədə olduqları müddət başa çatdıqdan sonra təkrar eyni vəzifəyə təyin edilə bilməzlər. Qanuna uyğun olaraq yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas kimi 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola bilər. Bundan başqa, Konstitusiya Məhkəməsinin hakimləri heç bir başqa seçkili və təyinatlı orqanda işləyə bilməzlər, elmi və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, biznes və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, siyasi fəaliyyətlə məşğul ola bilməz və siyasi partiyalara üzv ola bilməzlər, əmək haqqından, habelə elmi və yaradıcılıq fəaliyyətinə görə aldığı puldan başqa pul ala bilməzlər.

Konstitusiya Məhkəməsinin hakimləri öz vəzifələrini həyata keçirərkən müstəqildirlər, yalnız ölkəmizin qanunlara tabedirlər və işlədikləri dövrdə iş yerləri dəyişdirilə bilməz. Konstitusiya Məhkəməsinin sədri və sədr müavini Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir.

Konstitusiya Məhkəməsində işlərə Plenumun və palataların iclaslarında baxılır.

Konstitusiya Məhkəməsi Plenumuna məhkəmənin bütün hakimləri daxildir. Konstitusiya Məhkəməsi Plenumunun iclasları Məhkəmənin sədri tərəfindən çağırılır. Konstitusiya Məhkəməsi Plenumunun iclaslarına sədri və ya onu əvəz edən şəxs sədrlik edir. Hər hansı qərar qəbul etmək üçün Konstitusiya Məhkəməsi Plenumunun iclasında azı 6 hakim iştirak etməlidir. Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında müxtəlif dövlət orqanlarının sorğusuna əsasən, qanunlara izah verilir, vətəndaşların məhkəmə və başqa orqanların qərarlarından verdikləri şikayətləri və digər məsələləri həll edilir.

Palatalara gəldikdə isə, onun tərkibini məhkəmənin sədri tərəfindən müəyyən edilir. Palataların iclasları azı 3 hakim iştirak etməlidir. Palataların iclaslarında Konstitusiya Məhkəməsinin hakimləri növbə ilə sədrlik edirlər. Bu sədrliyin ardıcıllığı palataların iclaslarında müəyyən edilir. Konstitusiya Məhkəməsi palataları öz iclaslarında müxtəlif dövlət orqanlarının sorğusuna əsasən, qanunlara izah verilməsi, vətəndaşların məhkəmə və başqa orqanların qərarlarından verdikləri şikayətlərin və digər məsələlərin qəbul edilib-edilməməsi məsələsini həll edir.



# KONSTİTUSİYA MƏHKƏMƏSİ NƏ EDİR?

Əziz məktəblilər, Konstitusiya Məhkəməsi, Azərbaycanın məhkəmə hakimiyyəti sisteminə daxil olan digər məhkəmələrdən fərqlənir. Belə ki, Konstitusiya Məhkəməsi qanunların və digər rəsmi sənədlərin, bələdiyyə və məhkəmə qərarlarının Konstitusiyaya və digər qanunlara uyğunluğunu yoxlayır, Prezidentin, Milli Məclisin, Nazirlər Kabinetinin, Ali Məhkəmənin, Prokurorluğun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və məhkəmələrin müraciəti əsasında Azərbaycan Respublikasının Konstitusiyası və qanunları haqqında izahatlar verir. Hamımıza məlumdur ki, dövlət orqanları öz işlərini qanunlara əsasən həyata keçirməlidirər. Lakin bəzən elə hallar olur ki, dövlət orqanları üçün qanunların tələblərini başa düşmək çətin olur. Bunun üçün savadlı və peşəkar hüquqşünasların yardımına ehtiyac olur. Məhz Konstitusiya Məhkəməsinin hakimləri peşəkar hüquqşünaslardan təşkil olunduğu üçün belə hallarda qanun dövlət qurumlarına Konstitusiya Məhkəməsinə müraciət etməyi tövsiyə edir. Konstitusiya Məhkəməsinin qanunlardakı sual yaradan məqamlarla əlaqədar verdiyi izahlar ölkə ərazisində hamı üçün məcburidir.

Ümumiyyətlə Konstitusiya Məhkəməsinə aşağıdakı şəxslər müraciət edə bilərlər:

Hər kəs onun hüquqlarını pozan dövlət orqanlarının, bələdiyyələrin, məhkəmələrin qərarlarından Konstitusiya Məhkəməsinə pozulmuş hüquqlarının bərpa edilməsi məqsədilə şikayət verə bilər. Sual yaranır, bəs vətəndaşlar Konstitusiya Məhkəməsi hansı hallarda müracət edə bilərlər:

× Lakin vətəndaşın hüquqları məhkəmə tərəfindən pozularsa, o, ilk öncə yuxarı məhkəmələrə - apellyasiya və ya Ali Məhkəməyə müraciət etməlidir. Yalnız bu məhkəmələr də məsələni vətəndaşın xeyrinə həll etmədikdə, vətəndaş bundan sonra Konstitusiya Məhkəməsinə müracitə edə bilər. Şəxs Ali Məhkəmənin qərarı qəbul olunduqdan sonrakı 6 ay ərzində Konstitusiya Məhkəməsinə müraciət edə bilər. Əgər bu müddət üzrsüz səbəbdən ötürülərsə, şəxs Konstitusiya Məhkəməsinə müraciət etmək hüququnu itirir.





# 6. CİNAYƏT MƏSULİYYƏTİ VƏ CİNAYƏT PROSESİ NƏDİR?



Məsuliyyət nədir? Hər bir insan öz hərəkətlərinə görə cavabdehlik daşıyır. Yəni etdiyi pis və ya yaxşı əmələ görə kiminsə qarşısında cavab verir. Bu şəxslər adətən ya bizim müəllimlərimiz və ya valideyinlərimizdir. Fərd olaraq cəmiyyət bizdən duzgün, tərbiyəvi davranış tələb edir, lakin biz qaydaları pozduğumuz andan hərəkətlərimizə görə cavabdehlik daşımağa başlayırıq. Məhz bu andan bizim məsuliyyətimiz başlayır. Cinayət məsuliyyəti isə elə bir məsuliyyət növüdür ki, bu məsuliyyət, cinayət qanununda qadağan edilmiş cinayət əməlinin törədilməsi halında meydana çıxır. Əgər həmin qanunda göstərilən cinayət əməlini törətməmisənsə, deməli, sənin cinayət məsuliyyətindən söhbət belə gedə bilməz.

Cinayət məsuliyyəti hüquqi məsuliyyətin bir növüdür və cinayət qanunu ilə dövlət tərəfindən müəyyən edilir. Cinayət qanunu dedikdə, Cinayət Məcəlləsi nəzərdə tutulur. Cinayət Məcəlləsində hansı əməllərin cinayət olduğu və cinayət törətmiş şəxsə tətbiq edilə bilən bütün cəzalar qeyd olunmuşdur. Cinayət məsuliyyəti cinayət törətməkdə təqsiri olan şəxsin dövlət adından mühakimə edilməsini və onun barəsində cəzanın tətbiqini nəzərdə tutur. Beləliklə cinayət məsuliyyəti cinayət törədən şəxsin cəzanın tətbiqi ilə şəxsi və əmlak xarakterli məhrumiyyətlərə məruz qalması və dövlət qarşısında cavabdeh olmaq öhdəliyidir. Cinayət məsuliyyəti törədilmiş cinayətə görə yaranır. Cinayət məsuliyyətinə o şəxs cəlb olunur ki, o, konkret cinayət törətmiş olsun və ya cinayətin törədilməsində iştirakçı olsun. Cinayət törətmiş şəxsi cinayət



məsuliyyətinə yalnız məhkəmə cəlb edə bilər. Cinayətin törədilməsi ilə şəxs ilk öncə məhkəmə tərəfindən mühakimə olunur və daha sonra hakim məhkəmə prosesi vasitəsilə təqsirkar şəxs barəsində törətdiyi əmələ görə qanunlarda göstərilən cəzanı təyin edir. Cinayət işləri üzrə məhkəmə prosesi cinayət mühakimə icraatı adlanır.

## MƏHKƏMƏDƏ CİNAYƏT PROSESİ BARƏDƏ;

Əziz şagirdlər, artıq siz cinayət məsuliyyətinin nə demək olduğunu bilirsiniz. Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi, yəni cinayət törətdikdən sonra həbs olunması, daha sonra onun barəsində məhkəmənin cəza müəyyən etməsi əsasən, məhkəmə prosesi ərzində baş verir. Yəqin ki, sizlərdən hər biriniz gündəlik həyatınızda məhkəmə prosesi barəsində dəfələrlə filmlərə baxmısınız. Həmin filmlərdə məhkəmədə müəyyən şəxslər iştirak edir. Həmin şəxslərin tərkibinə zərərçəkən, prokuror (dövlət ittihamçısı), təqsirləndirilən şəxs, vəkil və hakim daxildirlər.

Zərərçəkmiş şəxs cinayətin törədilməsi nəticəsində maddi və ya fiziki zərər vurulmuş şəxsdir. Həmin şəxs ona qarşı cinayət törətmiş şəxs barəsində istintaq orqanına məlumat verir. İstintiaq dedikdə cinayət hadisəsini araşdırılması başa düşülməlidir. İstintaq orqanı isə həmin məlumat əsasında cinayət hadisəsinin araşdırılmasına başlayır. Adətən barəsində araşdırma aparılan şəxsə şübhəli şəxs də deyilir və həmin şəxs əksər hallarda cinayət araşdırması dövründə həbsdə saxlanılır. Lakin bu, hələ o demək deyildir ki, şübhəli şəxs həmin cinayəti törədib. Şəxs şübhəli qismində 48 saatdan artıq saxlanıla bilməz. Araşdırma, yəni istintaq başa çatdıqdan sonra istintaq orqanı (müstəntiq və ya prokuror) toplanmış işi məhkəməyə verir və məhkəmə bu sübutlar əsasında hadisəni törədən şəxs barəsində ya cəza seçir və ya həmin şəxsin təqsiri (günahı) sübuta yetirilməzsə, onu həbsdən azad edir.

Beləliklə, işlər məhkəməyə daxil olduqdan sonra məhkəmə prosesi başlayır. Məhkəmə prosesində iki tərəf olur: ittiham tərəfi (bura zərərçəkən və dövlət ittihamçısı daxildir) və müdafiə tərəfi (bura təqsirləndirilən şəxs və vəkili daxildir). Burada dövlət ittihamçısı sanki zərəçəkmiş şəxsin vəkili rolunda çıxış edir və onun mövqeyini müdafiə edir. Məhkəmə prosesinin əsas hissəsi dövlət ittihamçısının çıxışı ilə başlayır. Ondan sonra vəkil dövlət ittihamçısının gətirdiyi dəlillərə qarşı öz əks-dəlillərini təqdim edir. Vəkil məhkəmə prosesi ərzində təqsirləndirilən şəxsin



mövqeyini müdafiə edir. Hər iki tərəfin bu cür çıxışlarına məhkəmə çəkişməsi deyilir. Yəni tərəflər sanki bir-birilərini sınağa çəkərək çəkişirlər. Hər iki tərəf öz mövqeyini daha da əsaslandırmaq üçün şahidlərin ifadələrini dinləyə və ekspertlərin rəylərini ala bilirlər. Məhkəmə prosesi ərzində bütün çıxışlar, şahidlərin ifadələri və ekspertlərin rəyləri ümumiləşdirilərək hakim tərəfindən şəxsə cəza verilib-verilməməsi barəsində yekun qərar çıxarılır.

## YETKİNLİK YAŞINA ÇATMAYANLARIN CİNAYƏT MƏSULİYYƏTİ;

Dünyanın əksər ölkələrində azyaşlıların etdikləri cinayətlərə xüsusi yanaşılır. Belə ki, cəza təyin olunarkən onların ilk dəfə cinayət törədib-törətməməsi, onlara daha yüngül cəzalar təyin olunması yolları axtarılır. Ölkəmizdə cinayət törədən azyaşların cinayət məsuliyyətinə cəlb edilməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə həll olunur. Həmin məcəllədə cinayət məsuliyyətinə cəlb edilmə yaşı 14 yaş müəyyənləşdirilmişdir. Yəni Azərbaycanda cinayət törədərkən ən azı 14 yaşı olan şəxslərə cəza təyin oluna bilər. Həmçinin Cinayət Məcəlləsində 14 yaşından 18 yaş arasında cinayət törədən şəxs «yetkinlik yaşına çatmayan» adlanır. Bu şəxslər cinayət törətdikdə, onlara cəza təyin edilə bilər və ya tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə bilər.

Yetkinlik yaşına çatmayanlara böyüklər üçün qanunvericilikdə nəzərdə tutulanlarla müqayisədə daha yüngül cəza təyin edilir.

Cinayət Məcəlləsinə görə yetkinlik yaşına çatmayanlara aşağıdakı cəzalar təyin edilir:

1 cərimə - yalnız müstəqil əmək haqqı və ya əmlakı olan yetkinlik yaşına çatmayanlara qarşı tətbiq oluna bilər;
2 ictimai işlər – 40 saatdan 160 saatadək müddətə təyin olunur və həmin şəxsin bacardığı, onun təhsildən və əsas işdən asudə vaxtlarda yerinə yetirdiyi işlərdir;
3 islah işləri – bu işlər cinayət törətmiş və yetkinlik yaşına çatmayan şəxsə 2 aydan 1 ilədək təyin olunur. Bu zaman məhkəmənin hökmü ilə müəyyən edilmiş miqdarda məhkumun qazancından, beş faizdən iyirmi faizə qədər pul dövlət hesabına keçirilir;
4 müəyyən müddətə azadlıqdan məhrum etmə - yetkinlik yaşına çatmayan məhkumlara on ildən artıq olmayan müddətə təyin edilir.

Yetkinlik yaşına çatmayanlar yüngül cinayət törədərsə, ona tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilə edilir, hətta həmin şəxs cinayət məsuliyyətindən azad da oluna bilər.

Cinayət Məcəlləsinə əsasən, tərbiyəvi xarakterli məcburi tədbir aşağıdakılardır:

- xəbərdarlıq;
- valideyinlərin nəzarətinə vermək;
- vulumuş ziyanın qarşılığını ödəmək;
- yetkinlik yaşına çatmayanın asudə vaxtını məhdudlaşdırmaq və onun barəsində xüsusi tələblər müəyyən etmək.





# 7.
# AVROPA KONVENSİYASI VƏ AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ



İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Avropa Konvensiyası yalnız Avropa Şurasına üzv olan dövlətlər tərəfindən imzalanan beynəlxalq müqavilədir. Bu Konvensiyaya bəzən Avropa Konvensiyası da deyirlər. Konvensiya Avropa İnsan Hüquqları Məhkəməsini təsis edir və onun fəaliyyətini nizamlayır. Avropa Şurasına üzv olan bütün dövlətlərin hörmət göstərməli olduqları insan hüquqları Konvensiyada əks olunmuşdur. Konvensiya 1950-ci ildə İtaliyanın Roma şəhərində qəbul olunmuşdur. Ölkəmiz 2001-ci ildə Avropa Şurasına üzv olduqdan sonra bu sənədi qəbul etmişdir.

Avropa İnsan Hüquqları Məhkəməsi Fransanın Strasburq şəhərində yerləşən beynəlxalq məhkəmədir. O, Avropa Şurasına üzv olan və İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanı qəbul etmiş ölkələrin hakimlərindən ibarətdir. Hər bir üzv ölkə məhkəməyə 1 hakim göndərir. Hazırda məhkəmə hakimlərinin sayı 46 nəfərə çatır. Avropa İnsan Hüquqları Məhkəməsinin hakimləri müstəqil hakimlər kimi fəaliyyət göstərir və heç bir ölkəni təmsil etmirlər. Avropa Şurasına üzv olan bütün ölkələrin hüquqşünaslarından ibarət katiblər Məhkəməyə daxil olan şikayət ərizələri ilə işdə ona köməklik göstərir. Onlar vətəndaşı olduqları ölkələr qarşısında heç bir öhdəlik daşımırlar və tam müstəqildirlər. Reqistrin əməkdaşları məhkəmədə nə şikayətçiləri, nə də vətəndaşı olduqları ölkələrin hökümətlərini (yəni dövləti) təmsil etmirlər.

Avropa İnsan Hüquqları Məhkəməsi Avropa Konvensiyasını tətbiq edir. Məhkəmənin vəzifəsi Avropa Şurasına üzv olan ölkələrin Konvensiyada əks olunan insan hüquq və azadlıqlarına və onlarla bağlı zəmanətlərə ehtiramla yanaşmalarına nəzarət etməkdir.

Bu nəzarət şəxslərin, bəzi hallarda isə dövlətlərin verdiyi şikayətlərə (onlara “şikayət ərizəsi” də deyilir) baxılması ilə həyata keçirilir. Əgər Avropa Şurasına üzv olan ölkənin qeyd olunan hüquqlar və onlarla bağlı zəmanətlərdən birini və yaxud bir neçəsini pozduğu aşkar olunarsa, bu halda Məhkəmə qərar çıxarır. Qərarların icrası məcburidir: ölkələr öz üzərilərinə götürdükləri vəzifələrə əməl etməlidirlər.





giz

BMZ

Bundesministerium für
wirtschaftliche Zusammenarbeit
und Entwicklung

AHİM
AZƏRBAYCAN HÜQUQ İSLAHATLARI MƏRKƏZİ
AZERBAIJAN LAW REFORM CENTRE